**DOI: https://doi.org/10.59849/2957-3882.2024.1.31**
**UOT: 82-3.512.162**

# ZİYA BÜNYADOV VƏ ONUN "POLİS MƏMURU DÜMBÜL BƏYİN MACƏRASI" ƏSƏRİ HAQQINDA

**İradə ZƏRQAN***

***Açar sözlər:*** *Ziya Bünyadov, şəhid, qəhraman, şərqşünas, Dümbül, macəra*

## XÜLASƏ

Elmi məqalədə akademik Ziya Bünyadovun şəxsi keyfiyyətləri, ailə şəcərəsi, gəncliyi, hərbi uğurları, elmi və ictimai fəaliyyətinin tədqiqat nəticələri əks olunmuşdur. İşdə alimin bədii irsinə nəzər yetirilmiş, "Polis məmuru Dümbül bəyin macərası" əsəri fəlsəfi-etik aspektdə araşdırılmışdır. Əsərin akademik Ziya Bünyadovun ensiklopedik biliyi, geniş dünyagörüşü, zəngin həyat təcrübəsi, təşkilatçılıq və ünsiyyət ustalığının aynası olduğu diqqətə çatdırılmışdır. Eləcə də, əsərin gənc nəslin tərbiyəsinə mühüm təsirləri qeyd olunmuş, onların davranış və idrakına, maddi və mənəvi inkişafına töhvəsi şərh edilmişdir. Əsərdəki müəllim-tələbə, qadın-kişi, ata-oğul, ər-arvad, ümumiyyətlə ailə münasibətləri, oğlan və qızların tərbiyəsi, işgüzarlıq haqqındakı orijinal mülahizələrin fəlsəfi düşüncə mədəniyyətinə və əxlaqi-etik münasibətlərə zənginlik gətirdiyi, həyatdakı yaxşılıqlar və pisliklərin əsli, mahiyyəti haqqındakı təəssüratımızı nizamladığı qeyd edilmişdir.

## Giriş

Azərbaycan tarixi və şərqşünaslıq elminin inkişafında akademik Ziya Bünyadovun müstəsna xidməti olmuşdur. Onun şanlı həyat yolu və özündən sonrakı nəsillərə qoyduğu elmi irs əvəzsizdir. 1988, 1994 və 2004-cü illərdə nəşr olunan biblioqrafik vəsaitlər Ziya Bünyadovun elmi fəaliyyətinə güzgü tutur. Ç.N.Əhmədova tərəfindən tərtib olunan və 347 sənədin təsviri verilən vəsaitə alimin 1953-1994-cü illərdə çapdan çıxmış azərbaycan, rus, özbək, türk və avropa dillərində nəşr olunmuş kitab, məcmuə, elmi konfrans, simpozium materialları, dövri mətbuat məqalələri, kitabları haqqında dərc edilmiş rəylər**,** habelə redaktə etdiyi əsərlər barəsində biblioqrafik məlumatlar daxil edilmişdir. Təəssüf ki, bu göstəricidə Z.Bünyadovun rəhbərlik etdiyi və məsləhətçi olduğu dissertasiyalar barəsində məlumatlar göstərilməmişdir (Bünyadov, 1994). 2004-cü ildə Z.T.Qurbanovanın tərtib etdiyi biblioqrafik vəsait isə Ziya Bünyadovun elmi fəaliyyəti haqqında daha geniş informasiya verir. G.Baxşəliyeva və F.Əsədovanın birgə yazdıqları "Ziya Musa oğlu Bünyadov"adlı məqalə ilə başlayan vəsaitin I hissəsində akademik haqqında 701, II hissədə isə 1942-2003-cü illəri əhatə edən 384 sənədin xronoloji təsviri verilmişdir (Bünyadov, 2004).

Bəzən elə təəssürat yaranır ki, Ziya Bünyadövun yaradıcılığı ölkəmizdə və xaricdə tamamilə araşdırılmışdır. Lakin hər dəfə onun zəngin irsinə müraciət edərkən, maraqlı faktlar ortaya çıxır. Zahiri (cismi) və batini (canı), elmi-intellektual və ruhi-mənəvi keyfiyyətləri vəhdət təşkil edən şəxsiyyətin elmi-mənəvi irsi oxucuları maraqlandırmaqda davam edir. Ziya Bünyadovda dərin elmi maraq, iti zəka və güclü məntiqi arqumentasiya ilə yanaşı, biliyini doğru çatdırmaq və yeri gələndə mövqeyini canı və qanı ilə qorumaq əzmi vardı. O, dərin elmi müqabilində çox sadə və təvazökar, zarafatcıl, eyni zamanda "zalımın qarşısında doğru sözü deyəcək" qədər cəsur, alicənab və sözü bütöv adam idi.

* *Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent. AMEA Fəlsəfə və Sosiologiya İnstitutu.*
*E-mail: iradazargan@gmail.com*

Onun mürəkkəb və ziddiyyətlərlə dolu, oyun-oyuncaq dünyaya, bəzən də ağrılı-acılı həyata özünəməxsus baxış tərzi vardı. Bu baxışın yumoristik, satira dolu qismini akademikin "Ədəbiyyat və incəsənət", "Ədəbiyyat" qəzetlərində çıxan parodiya və hekayələrində, "Ədib Sayan Yıxılmazovun həyatından hekayələr" tərcümə kitabında, eləcə də "Polis məmuru Dümbül bəyin macərası" əsərində görmək olar.

**Şəxsiyyəti**

Allah rəsulu Muhamməd (s.ə.s) alimin mürəkkəbini şəhid qanı ilə müqayisə etmişdir. Azərbaycanın şanlı tarixində hər iki üstün keyfiyyəti ilə tanınan çağdaşımız akademik Ziya Bünyadov belə fenomen şəxsiyyətlərdəndir. Biz dəfələrlə onun əziz xatirəsinə həsr olunmuş konfranslarda məruzəçilərin hörmət, sevgi, heyranlıq və rəğbət dolu çıxışlarının şahidi olmuşuq. O, yaxşı övlad, yaxşı şagird, yaxşı hərbçi, yaxşı həyat yoldaşı, yaxşı iş yoldaşı, yaxşı müəllim, elm adamı və idarəçi kimi yadda qalmışdır.

**Ailə şəcərəsi**

Ziya Bünyadov 1923-cü il dekabr ayının 24-də Astara şəhərində anadan olmuşdur. Ziyanın atası - Musa Mövsüm oğlu Bünyadov hərbi tərcüməçi, anası –Azərbaycanın liman şəhəri Lənkəranda doğulmuş köhnə rus köçmənlərindən olan Raisa Mixaylovna Qusakova idi. O, Bibi-Heybət ruhaniləri nəslindən olan atasının sayəsində hələ uşaqlıqdan ərəb dilini öyrənmiş və Quranı oxumağa başlamışdı. Ziyanın nəsil şəcərəsini təsdiq edən tarixi sənədlərə görə, "Bünyadov soyadı onun 13-cü ulu babası şeyx Bünyadın adından götürülmüşdür. Onun bütöv adı: Şeyx Ziya əd-din bin Şeyx Musa bin Şeyx Məsum bin Şeyx Mehdi bin Şeyx Mirzə bin Şeyx İsmayıl bin Şeyx Əli Muhəmməd bin Şeyx Muhəmməd Əmin bin Şeyx Əli Əsgər bin Şeyx Muhəmməd Muğam bin Şeyx Əsgər Əli bin Şeyx Qulaməli bin Şeyx Bünyad əl-Bakuvidir." (Bünyadova, 2002, s.494).

**Gəncliyi**

Ziya Bünyadov 1939-cu ildə orta məktəbi bitirdikdən sonra, təyyarəçilik məktəbinə daxil olmaq üçün Bakıya gəlmiş, lakin tibbi komissiyadan keçə bilmədiyindən, yaşına iki il əlavə edərək S. Orconikidze adına Bakı Piyadalar Məktəbinə daxil olmuşdur. 1941-ci ildə hərbi məktəbi leytenant rütbəsində əlaçı diplomu ilə bitirən Ziya Bessarabiyaya - Dnestr çayı üzərindəki kiçik liman şəhəri olan Bəndərə xidmət yerinə göndərilmişdir. İkinci dünya müharibəsi başladıqdan cəmi bir saat sonra həyatında ilk döyüşə girən Ziya (iki dəfə yaralanma və kontuziya səbəbi ilə xəstəxanalarda keçirdiyi vaxtı çıxmaqla) Berlinədək vuruşaraq şərəfli döyüş yolu keçmişdir (Abbasov, 2024).

O, Ukrayna və Moldova uğrunda döyüşlərdə, Mozdok və Tuapse, Belorusiya və Polşa savaşlarında fəal surətdə iştirak etmişdir. Ziya düşdüyü mühasirədən döyüşərək çıxmış və polkun bayrağını xilas edərək əsgəri şərəfini qorumuşdur. Gənc Z.Bünyadov Şimali Qafqazda gedən döyüşlərin də iştirakçısı olmuş, əksəriyyəti Volqa matroslarından təşkil olunmuş 120 nəfərlik rotaya başçılıq etmişdir.

Yalana və ədalətsizliyə qarşı mübariz şəxsiyyət olan Ziya Bünyadov anlaşılmazlıq ucbatından düşdüyü və bir il qaldığı cərimə rotasında da hörmət qazanmış, özündən yaşca və təcrübəcə böyük olan cəzalıların rəğbətini qazanmışdır. Bunu diqqətdən qaçırmayan komandanlıq, Bünyadova cərimə batalyonuna başçılıq etməyi təklif etmişdir (Bünyadova, 2022).

**Hərbi uğurları**

Kapitan Bünyadovun komandanlığı altında 123-cü cərimə batalyonu Visla-Oder əməliyyatı zamanı Pilisa çayı üzərindəki 80 metrlik minalanmış körpünü ələ keçirmiş və əsas qüvvələr gəlib çıxıncaya qədər bir neçə saat ərzində onu düşmənin aramsız hücumlarından qoruyub saxlaya bilmişdi. Bu müddət ərzində 670 nəfər döyüşçüsü olan batalyondan cəmi 47 nəfər sağ qalmışdı (Abbasov, 2024). Təltif vərəqində yazılır ki, "Kapitan Z.M.Bünyadovun məharətli komandanlığı nəticəsində 123-cü

əlahiddə batalyon 1945-ci il 14-16-yanvar tarixlərində düşmənin Manquşevsk sahəsində müdafiə xəttini yarmış, Pilitsa çayını keçmiş, ələ keçirdiyi döyüş mövqeyini 89-cu qvardiya diviziyasının əsas atıcı hissələrinin gəlib çıxmasına qədər saxlamışdır. Batalyon düşmənin 160 əsgər və zabitini öldürmüş, 45 əsgərini əsir götürmüş, 5 minamyot, 3 top, çoxlu sayda avtomat, tüfəng, sursat, ərzaq və başqa qənimətlər ələ keçirmişdir..." 1945-ci il 27 fevralda Ziya Bünyadova II Dünya müharibəsindəki xidmətlərinə görə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir (Abbasov, 2024). Bütün bu nailiyyətlər gənc Ziyanın yüksək əxlaqi keyfiyyətlərindən, fəallıq və cəsarətindən, ictimai potensialından və yaradıcı təfəkküründən xəbər verirdi. Onun II Dünya savaşından sonrakı fəaliyyəti və elmi yaradıcılığı bu böyük insanın şərəfli ömür yolunun ahəngdar davamı oldu.

**Elmi fəaliyyəti**

1946-cı ildə Moskva Şərqşünaslıq İnstitutuna, 1950-ci ildə isə həmin institutun aspiranturasına daxil olan Ziya 1954-cü ildə namizədlik dissertasiyası müdafiə edərək Azərbaycana dönmüşdür. O, Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunda elmi axtarışlarını davam etdirmiş, 1964-cü ildə "Azərbaycan VII-IX əsrlərdə" mövzusunda dissertasiya müdafiə edərək elmlər doktoru elmi dərəcəsi, 1965-ci ildə isə professor elmi adı almışdır. Z.Bünyadov 1967-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1973-cü ildə akademiyanın həqiqi üzvü, 1981-ci ildə Şərqşünaslıq İnstitutunun direktoru, 1990-cı ildə isə Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti seçilmişdir. O, elmi tədqiqatlarla yanaşı tərcümə işi ilə də məşğul olmuş, Azərbaycan tarixi və şərqşünaslığı üçün elmi əhəmiyyət kəsb edən 16 əsəri rus dilinə, 12-ni azərbaycan dilinə tərcümə etmiş, 5 əsəri isə həmmüəlliflərlə birgə azərbaycan dilinə çevirmişdir. Akademik Vaqif Abbasov "Dahilərin, müdriklərin və fatehlərin həyat dərsləri" kitabının IV cildində bu barədə ətraflı məlumat vermişdir (Abbasov, 2024).

Z.Bünyadövun əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmiş, "Qırmızı bayraq", "Aleksandr Nevski", "II dərəcəli Vətən müharibəsi", "Qırmızı ulduz" ordenləri və müxtəlif medallarla təltif edilmişdir. Təsadüfi deyil ki, Heydər Əliyev onun haqqında "Ziya təkcə bir alim, qəhraman yox, həm də ən kəskin məqamlarda belə öz xalqının mənafeyini güdən bir şəxsiyyət, vətəndaşdır... Azərbaycan xalqının milli mənafelərini qorumaq nöqteyi-nəzərdən və tarixi həqiqəti bugünkü nəsillərə və dünya tarixinə çatdırmaq baxımından Ziya Bünyadovun əsərləri əvəzsizdir." - söyləmişdi (Əliyeva, 2010). Ziya Bünyadovun "Azərbaycan Atabəyləri dövləti" (1136-1225) monoqrafiyası dövlətçilik tariximizə işıq tutan sanballı qaynaqdır. Bu əsər rus-erməni siyasətinin saxtalaşdırdığı tarixi yerlə-yeksan etmiş, Azərbaycan xalqının Qafqazda daha qədimdən məskunlaşdığını, Azərbaycan dövlətçilik tarixində Şəmsəddin Eldəgəz (1136-1174), Məhəmməd Cahan Pəhləvan (1174-1186), Qızıl Arslan (1186-1191) kimi hakimlərin fəaliyyətini yeni nəslə xatırlatmışdı.

**İctimai fəaliyyəti**

Həyat göstərdi ki, Ziya Bünyadov yalnız tarixşünas alim, qəhrəman döyüşçü deyil, həm də görkəmli ictimai xadimdir. AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru Gövhər xanım Baxşəliyeva xatirələrində bildirir ki, "ilk baxışdan sadə görünən bu insan hərdən çox zəhmli olurdu. Amma çoxları bilmirdi ki, bu böyük insanın geniş ürəyi, incə qəlbi var. Hərdən uşaq kimi ərköyün, hərdən də ağsaqqal kimi çox ciddi olurdu. Ziya Bünyadov ömrü boyu mübarizə aparmaq üçün doğulmuşdu elə bil, heç nəyə biganə qala bilmirdi. Azərbaycan xalqının taleyilə oynayanları, xalqın sərvətini talayanları, müstəqilliyinə biganə olanları sərt çıxışları ilə həmişə qamçılayırdı. Laqeydlik ondan uzaq idi... O hər şeydən əvvəl qəhrəman idi. Təkcə ona görə yox ki, Böyük Vətən müharibəsindən qalib kimi qayıtmışdı. Həm də ona görə ki, sonralar da həmişə, son nəfəsinə qədər vətəninin keşiyində durdu, son nəfəsinə qədər onun azadlığı uğrunda mübarizə apardı, son nəfəsinə qədər tutduğu mövqedən dönmədi..." (Umudlu, 2012)

Akademik Ziya Bünyadovun nəşr edilən 300-dən çox elmi əsəri geniş erudisiya və hədsiz işgüzarlığının nəticəsidir. O, orta əsr yaşayış məntəqələrinin müəyyənləşdirilməsi, şəcərə cədvəllərinin

dəqiqləşdirilməsi, Azərbaycanın qonşu ölkələrlə tarixi əlaqələri haqqında məlumatların sistemləşdirilməsi barədə, habelə tibb, seysmologiya və astronomiyaya dair orta əsr ərəb mənbələrindəki məlumatların aşkara çıxarılıb elmə gətirilməsində mühüm rol oynayan fenomenal şəxsiyyətdir. Z.Bünyadovun biliyi, alim nüfuzu, vətəninə sonsuz sevgisi gələcək nəsillərə örnəkdir. O, türk, ərəb, fars, rus, gürcü, alban və Qərbi Avropa mənbələrindən istifadə edərək, elmə az məlum olan yazılı abidələri öyrənir, tədqiqat nəticələrini Azərbaycanda olduğu kimi, Rusiyada, İraqda, Misirdə, Fransada, Türkiyədə, Orta Asiya respublikalarında çap etdirirdi. Onu nəinki dostları, düşmənləri də yaxşı tanıyırdılar. Ermənilərin özlərinə düşmən hesab elədikləri şəxslərin siyahısında Ziyanın adı öndə idi...

Z.Bünyadov həyatının son illərində Tacəddin əs-Salmaninin "Tarixnamə", V.V.Bartoldun "Xəzəryanı vilayətlərin müsəlman aləmində yeri" əsərlərini tərcümə etmiş, "Dinlər, təriqətlər, məzhəblər" adlı ensiklopedik əsər, "Polis məmuru Dümbül bəyin macərası (bənzətmə)", "Naxçıvan sancağının müfəssəl dəftəri", "Tarixnamə" bədii əsərlərini yazmışdır. "Alban tarixinin gözəl bilicisi olan Z.Bünyadov öz araşdırmaları və çıxışları ilə dəfələrlə saxtakar erməni tarixçilərin yalançı iddialarını faktlarla ifşa etmişdi. O üzərlərini toz basmış bir çox tarixi həqiqətləri gün işığına çıxarmışdı. Qərmətilərlə bağlı arxivdə araşdırma aparmış, ilk dəfə arxiv sənədlərinə əsasən ermənilərin 1918-ci ildə Bakıda, Şamaxıda və Qubada törətdikləri qətliamlar haqqında geniş tədqiqat işləri yazmışdı. Ziya Bünyadov "Azərbaycan" qəzetində represiya qurbanları haqqında silsilə məqalələr çap edərkən, qəzetə minnətdarlıq məktubları gəlir, insanlar ədalətin bərqərar olmasından sevinirdilər (Əliyeva, 2010, s.12).

**Şəhadəti**

Ziya Bünyadov tarixi gerçəkləri yeri gəldikcə cəsarətlə, qorxub-çəkinmədən açıb söyləyirdi. Onu ideoloji basqılardan, həbslərdən, cəzalardan qoruyan amili Sovet İttifaqı Qəhrəmanı adında görənlər az deyildir. Lakin, həyatda təsadüfi heç nə yoxdur. Onu qoruyan səbəbi müsahibələrindən birində Ziya müəllim özü qeyd etmişdi: "Heç vaxt Allaha qarşı getmək olmaz". Quranda həqiqəti gizlədib yalan danışmaq, hikməti sevməmək, ədalətsizlik etmək zülm və Allaha qarşı getmək hesab olunur. O, doğru danışanlardan idi, müdrik və xeyirxah, əməksevər və sadə idi, əyilməzdi, sınmazdı, adamlar onu sevirdilər... Onun sözünə, mövqeyinə cəmiyyətin ehtiyacı vardı. Yalnız Allaha qarşı gedənlər onu sevmədilər...

Ölümü də ölümsüzlüyündən xəbər verir Ziya Bünyadovun... Tarixçi alim, kəsərli söz sahibi, Sovet İttifaqı Qəhrəmanı, Dövlət mükafatı laureatı, əməkdar elm xadimi Ziya Bünyadov 21 fevral 1997-ci ildə yaşadığı binanın girişində iki bıçaq zərbəsi və ağzından güllə ilə vurularaq öldürülsə də, onun zəngin elmi irsi, görkəmli şəxsiyyəti gələcək nəsillərə həmişə kamillik, ədalət, cəsarət nümunəsi kimi qaldı. Onunla vida mərasimində Heydər Əliyev demişdi: "Bu qədər dahi, bu qədər ali, bu qədər böyük həyat yolu keçmiş şəxsiyyətə atılan güllə, onun qətlə yetirilməsi bütün Azərbaycan xalqına edilən təcavüzdür, Azərbaycan xalqına atılan gülllədir. Çünki Ziya Bünyadov Azərbaycan xalqını ən gözəl təmsil edən şəxsiyyətlərdən biri və o şəxsiyyətlərin içində seçiləni idi". (Umudlu, 2012, s.20)

**"Polis məmuru Dümbül bəyin macərası" əsəri haqqında**

Müəllifin "Polis məmuru Dümbül bəyin macərası" və ya "Dümbül bəyin iç üzü" adlandırmaq istədiyi və sağlığında işıq üzü görməyən əsəri bəzi səbəblərdən geniş oxucu kütləsinə az məlumdur: Əlyazma akademikin ölümündən sonra həyat yoldaşı Tahirə Bünyadova tərəfindən arxivindən aşkarlanaraq, nəşrə tövsiyə olunmuşdur. Əsərin adı Z.Bünyadov haqqındakı elektron resurslarda yerləşdirilməmişdir. Tərtibçilər Hüsaməddin Məmmədov və Məsiağa Məhəmmədi əsərin "ruhunu", məhz müəllifə xas "dadını-duzunu" saxlamaq üçün əlyazmanı çox cüzi düzəlişlərlə çapa təqdim etdiklərindən, müəllifin dərin sarkazm və eyhamları sıradan oxucu üçün bir qədər çətin qavranılır. 3)Əsər kağız formatında kitabxanalara paylansa da, pdf faylları internet şəbəkəsində əlçatan deyildir.

Əsərin janrı, dil zənginliyi, məcazları, ibarələri, eyhamları və s. haqqında dilçi və filoloqların elmi yanaşmaları daha maraqlı ola bilər. Hazırkı məqalədə kəskin, dramatik süjet xəttinə rəğmən, gülməli, məzəli, ironik və satirik üslubda yazılan "Polis məmuru Dümbül bəyin macərası" əsərinə

fəlsəfi-etik aspektdən baxılmışdır. Kitaba müasir risalə də demək olar. Çünki əsər yazıldığı tarixi şəraiti təsvir etməklə yanaşı, insanın həyat mübarizəsinin bütün mərhələləri üçün "ipucları" təklif edir, oxucunu öz-özünə nəzər salmağa, nöqsanlarını görməyə, maariflənməyə təşviq edir.

Kitabın məzmunu həyatın özü kimi təbiidir: orada nələr yoxdur: çərçivələr və çərçivəyə sığmayanlar, ədəbsizliklər içərisində ədəb dərsləri və ya əksinə, mədəni pərdələr içindəki əxlaqsızlıqlar... Və bütün bayağılıqlar, kontrastlar, açıq-saçıq, jarqon məzmun və ifadələr mühitində qızıl kimi parıldayan gözəl niyyət – adamlıq dərsi. Müəllif insanı dünyada adam olmaqdan yayındıran halları və təhlükələri abır-həya gözləmədən, bütün çılpaqlığı ilə cəmiyyətin üzünə vurur ki, bəlkə iyrənib özünə çəki düzən verən ola...

Tədqiqat və müşahidələr göstərir ki, insanı dünyanın pisliklərindən təcrid etmək mümkün deyildir. Başlıca vəzifə onu həyatın hər üzünün varlığından xəbərdar etmək, sevgi və nifrət, xeyir və şər dolu mübarizəyə hazırlamaqdır. Ziya Bünyadovun "Polis məmuru Dümbül bəyin macərası" əsəri oxucuya həyatın müxtəlif situasiyalarını məhz akademikin zəkasından gələn işıq altında göstərir. O, əsərin aktuallığını belə əsaslandırır: "Həyatın iki növü var: sizin və özgənin. Çətinlik öz həyatını yaşamaqda deyil, özgənin həyatına dözməkdədir. Bunun üçün davranış və nəzakət qaydaları adlanan çox mürəkkəb elmi mənimsəmək lazımdır. Bu qaydalar doğumdan əvvəl başlanır və ölümdən sonra davam edir..." (Bünyadov, 1997, s.4)

Əsərdən götürülən iqtibas ilk baxışda şübhə doğura bilər: davranış və nəzakətin elmlə nə əlaqəsi var? Lakin bütövlükdə əsər, müəllifin elmi-məntiqi arqumentləri, sosial-psixoloji görüşləri oxucuda müəyyən inam yaradır. Bəli, elm və əxlaq eyni deyil, lakin əsl insanda bu keyfiyyətlər vəhdət təşkil edir. Bilkli insanda nəzakətin varlığı və yoxluğu cəmiyyətə fərqli təsir bağışlayır. Z.Bünyadov yazır: "Elə törəmələr var ki, onlar heç özlərini apara bilmirlər və bu qaydaların təsirindən hətta meyitlər üfunət iyi verirlər və əksinə! (Nəbilər və şəhidlər kimi gül qoxusu verirlər – İ.Z)" (Bünyadov, 1997, s.5).

Müsəlman aləmində bu fikri təsdiq edən hədis və rəvayətlərdən də məlum olduğu kimi, insanın batini zahirinə yansıyır. İnsandakı elm və iman keyfiyyətləri vəhdətdə xeyrə xidmət edir. İmam Qəzali dünyaca məhşur "İhya Ülumid-din" əsərində yazırdı ki, "naqis qəlbə elm girməz"; "elm silah kimidir: naqis əldə təhlükəlidir"... Başqa sözlə, elm binasına ədəb qapısından girmək olar. İnsanda ədəb, nəzakət, davranış əxlaqı çox mühümdür. Lakin saxta davranış riyakarlıqdır. İnsani keyfiyyət, nəzakət təbii, içdən gələn vərdiş kimi, özü-özlüyündə təzahür etməlidir.

Z.Bünyadov "Polis məmuru Dümbül bəyin macərası" əsərinin təyinatı və əhəmiyyətini nəzərdə tutaraq yazır: "...mən inanıram ki, bu səhifələr gənclər üçün faydalı olacaq, çünki burada yazılanlar onların nəzakətlə sarınmış ədəbli mumiya olmağına mane olacaq" (Bünyadov, 1997, s.4). Müəllif əsərində mədəni çərçivələr, süni, formal davranışlar altında nələrin gizlənə biləcəyini gənclərə başa salmaq istəyir. O, həyatda hər şeyin heç də göründüyü kimi olmadığını, bəzən şirin dil altında zəhər, bər-bəzək altında təzək, nəzakət və kübarlıq pərdəsi altında vəhşilik və hərislik gizləndiyini əyani dəlillərlə sübut edir. Z.Bünyadovun "Polis məmuru Dümbül bəyin macərası" əsəri insanın həm heyvani - nəfsani, həm də ruhi - mənəvi keyfiyyətlərinə ayna tutur.

Akademikin mövqeyi çox düşündürücüdür. Onun fikrincə, insan məhz ədəb düsturunun tərkibinə əl atdıqdan, yəni onu öz nəfsinə uyğun dəyişdikdən sonra daha sərt xarakter almışdur... Fərd sərt alətlər məngənəsinə düşəndə əl öpməyi bacaran, şaftalının qabığını soyan tərbiyəli robota çevrilir. Z.Bünyadov insanların hikmətdən uzaqlaşaraq qəflətə düşmələrini əsərdə aşağıdakı məcazla ifadə edir: İnsan "...İngiltərə kraliçasına dərin hörmət bəslədiyinə and içməyə başladı, amma bütün bunlara həqiqətlə əlaqəsini itirə-itirə nail oldu" (Bünyadov, 1997, s.4). Əslində bu cümlədə müsəlmanlıq tarixinin tənəzzül səbəbi lakonik ifadəsini tapmışdır. Əsərin bu hissəsində Z. Bünyadov son 300 il ərzində beynəlxalq aləmdə anqlo-sakson idarə üsulunun yayılması ilə paralel insanların ilahi nizamdan yayınması və həqiqətlə (Allahın vədi - Quran hikməti ilə) əlaqəsinin kəsilməsinə işarə vurmuşdur.

Əsərdəki hadisələr İsgəndər Səbzə Dümbül bəy və onun həmkarı, macəranı nəql edən "qağa"nın ətrafında baş verir. "Qağa" istəkli dostu, sadə və alicənab Dümbül bəyin gözəl davranışlar

kodeksi dərsini tələbələrə öz məhrəm sifətləri ilə zəngin - satirik-yumoristik obrazda, əyləncəli təqdimindən bəhs edir. Tərtibat və məzmun cəhətdən tamam fərqli, maraqlı və cəlbedici əsəri oxuyarkən, müəllifin zəngin dünyasına qərq olur, onunla birgə hadisə və proseslər burulğanında həyacanlanır, heyrət edir, ürəkdən gülürsən...

İsgəndər və qağa iki tələbənin intihar səbəbini və güllə deşikləri müəllimi Səmədin şikayətini araşdırmaq məqsədilə polis məktəbinə ezam olunmuşlar. Ehtimal olunan cinayətkarları şübhələndirməmək üçün biri nəzakət qaydaları müəllimi, digəri isə tələbə kimi təhsil müəssisəsinə daxil olur. Əslində çox ciddi, dövlət əhəmiyyətli (xarici ölkə prezidentinə qəsdin qarşısının alınması əməliyyatı) - 2 insanın ölüm faktı və üçüncünün ölüm təhlükəsi ilə üzbəüz qaldığı müəmmanın açılmasında yazıçının belə maraqlı, düşündürücü, eyni zamanda gülünc və əyləncəli üslubu insanda qəribə heyrət hissi yaradır. Kitabı oxuduqca, faciələrlə, eybəcərlik və çirkinliklərlə dolu həyatın bir o qədər də anlamlı, ibrətamiz, şirin və gözəl olduğuna inanırsan. Eləcə də səmimi, təmiz, təbii insan münasibətlərinin, ədalət və doğruluğun cəmiyyət üçün nə qədər vacib və dəyərli olduğuna şahid olursan.

Əsər maraqlı mülahizələr, əyləncəli təşbehlər, hikmətli fikir və aforizmlərlə doludur. Məsələn: “Tarix hiylələrlə doludur. Adlarda isə kiçicik təsəlli əlaməti hiss olunur.” (Bünyadov, 1997, s.4); “Həyatın iki növü var: Sizin və özgənin. Çətinlik öz həyatını yaşamaqda deyil (əgər siz tələbkar deyilsinizsə, bu sizə müyəssər olar), çətinlik özgənin həyatına dözməkdir” (Bünyadov, 1997, s.4). Davranış və nəzakət qaydalarını elm adlandıran müəllif bu elmin ən sadə cəhətini onun adı hesab edir. O yazır: “Bəs davranış və nəzakət qaydaları nə deməkdir? Bəlkə bu heç elm də deyil, sənətdir? Bəşər komediyasının sənəti? Bu komediyanı insan bütün ömrü boyu böyük və ya kiçik müvəffəqiyyətlə ondan ötrü oynayır ki, insanı heyvandan ayıran dar xəndəyi bir az genişləndirə bilsin.” (Bünyadov, 1997, s.4); “Ən ümdə nəzakət yaxın adamların xoşuna gəlməkdir” (Bünyadov, 1997, s.7). Doğrudan da, son dövrlərdə cəmiyyətdə bu məsələnin nə qədər aktual olduğunu təsdiq edən hadisələrə daha çox şahid oluruq. Aramızda elə şəxslər vardır ki, təhsil müəssisələrinə rəhbərlik edərək, həm də yüzlərlə gəncə nəzakət örnəyi olmaq məsuliyyətini daşıyırlar. Lakin öz yaxınları ilə sıx ünsiyyət qurmağın, onların xoşuna gəlməyin, halallığını almağın nə qədər vacib olduğu haqqında düşünmürlər. Atalar nahaq yerə “Əvvəl evin içi, sonra çölü” məsəlini çəkməmişlər. Əsərdəki müəllim-tələbə, qadın-kişi, ata-oğul, ər-arvad, ümumiyyətlə ailə münasibətləri, oğlan və qızların tərbiyəsi, işgüzarlıq haqqındakı orijinal mülahizələr oxucunu düşündürür, həyatdakı yaxşılıqlar və pisliklərin əsli, mahiyyəti haqqındakı təəssüratları zənginləşdirir.

Əsərdə cəmiyyətin orta təbəqəsini təmsil edən insanların hiss və həyacanları, qayğı və düşüncələri dilə gətirilir. Onların içərisində artıq müəyyən vəzifə sahibi olmasına baxmayaraq, hələ də orta məktəbdəki ifrat dərs yükü səbəbindən çəkdiyi psixoloji sarsıntını unuda bilməyən şəxsin şikayəti də var: “Axı nəyə görə hər səhər edam kötüyünə gedirmiş kimi məktəbə yollanmalısan, təəssüflə öz yatağından, öz istiliyindən, öz anandan, öz əyləncələrindən, öz uşaqlığından ayrılmalısan? O uşaqlığı ki, müəllimlər onu məndən çolpadan tiftik qoparan kimi qopardırdılar! ... təəssüflənirəm ona görə ki, mən uşaqlığımdan son damlayadək, sərbəst və doyunca həzz almamışam. O uşaqlığım mənim yeganə sərvətim idi və mən onu bilmədən cəmiyyətə qurban etmişəm! Mən onu siniflərdə boğmuşam, o dərsliklər içində quruyub. Ətalətli, üzgün, söyülmüş, tənbeh edilmiş uşaqlığım...” (Bünyadov, 1997, s.50).

Orta məktəbdə öyrədilən biliklərin hamısının labüdlüyü fikri ilə razılaşmadığını əsaslı dəlillərlə sübut edən Z.Bünyadov aşağı sinif şagirdlərinin daha çox təbiətlə təmasda, əylənərək bilk öyrənmələrini istəyir. O, müasir dövrdə əlli nəfərlik şuluq siniflərlə işləyən, təşəkkür etmək əvəzinə müəllimi ilə quşatanla təmasa girən şagirdlərə dərs keçən fədakar müəllimlərin qəhramanlığını da yüksək qiymətləndirir. O yazır: “Təhsili radio, televizor, rabitə texnologiyaları, Morze əlifbası, korlar üçün şrift vasitəsilə yayırlar, lakin yeni kütlələrin pərakəndə dəstələrinə həmlələrini daha da sərtləşdirirlər. Elə günlər gələcək ki, tərkibin ixtisarı üçün tənəffüs vaxtı kiçik qumbaralar atılacaq və ya maarifi lüzumsuz elan edib, bu yazıq uşaqları gül yığmağa göndərəcəklər” (Bünyadov, 1997, s.51). Doğrusu hələ qumbara atılmır, amma müasir təhsil sistemi maarifi lüzumsuz hesab etdiyindən, orta

məktəblərdə nizam-intizam bərbad vəziyyətdədir. İntizamsızlıq şəraiti isə təhsilin keyfiyyətinə təsirsiz ötüşmür. "Repetitor"luq aradan götürülsə, məktəb təhsilinin yerində böyük bir boşluq qalar.

Z.Bünyadov "Polis məmuru Dümbül bəyin macərası" əsərində Azərbaycanda keçid dövrünün sosial-psixoloji, ictimai-etik problemlərinə toxunur. Əsər akademik Ziya Bünyadovun ensiklopedik biliyi, geniş dünyagörüşü, zəngin həyat təcrübəsi, təşkilatçılıq bacarığı və ünsiyyət ustalığının aynası - insanın başqaları ilə münasibətləri tənzimləmə təcrübəsinin bir nümunəsidir. Əsərdə nəzakət qaydaları müəllimi İsgəndər Səbzə Dümbül bəy, Mürsəl, qağa, güllə deşikləri müəllimi Səməd, Əlif bəy kimi müsbət personajlarla yanaşı Xanzadə xanım, həkim İmalə, Şappayaq, Əbdül kimi mənfi, müəmmalı, mürəkkəb obrazlar vardır.

Akademik Ziya Bünyadovun bədii əsəri insanın öz xətalarından dərs alaraq necə yetişməsini göstərir. Dümbül bəy ideal ədəbi qəhrəman deyil: o səhvləri, xətaları olan, lakin dürüst, doğru sözlü, xoş niyyətli, yaxşılığa can atan, saf, sadə, səmimi, təmiz qəlbli adam, eyni zamanda işinə can yandıran, peşəkar mütəxəssisdir.

Bu əsər ruhu göylərə qaldırıb nəfsi ayaq altına atmır. Nəfsin də ruha xidmət etmək xüsusiyyətini izah edir. Z.Bünyadov bu ftri keyfiyyətlərin həyati funksiyalarının əhəmiyyəti ilə gəncləri tanış edir. O, öz xətalarının nəticələri nümunəsində nəfsi cilovlamağın vacibliyini əyani dəlillərlə gənclərin diqqətinə çatdırır və onları səfərbər olmağa çağırır. Dümbül bəy digər müəllimlər kimi deyil, fərqlidir, dərsini də tələbələrinə özünəməxsus şəkildə keçir. O öz həyat təcrübəsini təmiz xammal kimi istifadəyə verir - olduğu kimi təsvir edir, nəyi edib, nəyi etməyəcəklərini isə gənclərin ixtiyarına buraxır. Təcrübəsizlikdən doğan xətaların səmimi etirafı - olduğu kimi, doğru deyilməsi gəncləri doğru, düzgün düşüncəyə yönəldir.

Dümbül bəyin macəraları gənclərin gözünü açır. Onları Allahın halal ünsiyyət üçün insanlara bəxş etdiyi fitri keyfiyyətin - nəfsani hisslərin harama sərf edilməsinin acı nəticələri ilə qarşı-qarşıya qoyur. O, gəncləri həyatın gerçəkləri üzərində düşünməyə dəvət edir, hətta müəllimlərin düşüncə və davranışlarının mütləq qəbul edilməməsi, azad, rasional düşüncə süzgəcindən keçirilməsinə ehtiyac olduğu mesajını verir. Bir sözlə, əsərin oxucuya aşıladığı ideyalardan biri belədir: Başqa təcrübələr sənə öz təcrübələrini qurmağa və həyat yolunu müəyyənləşdirməyə o zaman kömək edir ki, riyakarlıqdan uzaq olsun. Vay o gündən ki, ətrafdakılar öz təcrübələrinin üstünü örtüb, sənə xəyallarını - əsli olmayan ideallarını deyib yalan danışalar, riyakarlıq edələr... Yalan təməl üzərində isə etibarlı bina qurmaq – həqiqi şəxsiyyət yetişdirmək olmaz.

Əsərdə gənclərin öz yanaşmalarında qətiyyən tərəddüd etməyəcəkləri bəzi məqamlara da toxunulur. Bunlardan biri valideynlərə və ailənin digər üzvlərinə diqqət, ehtiramdır. Z. Bünyadov yazır: "Oğlanlar, ana müqəddəsdir, yaşayanda da, dünyadan köçəndə də. Bəs necə! Axı yüz yaşlı da canını Allaha tapşıranda və ya gəbərəndə "Ana!" deyə pıçıldayır... Məncə ana ölümün özünü də dözümlü edə bilər. Ana yaşamağı da öyrədər, ölməyi də... Əgər bunu edirsə, demək belə lazımdır. Dünyadan bezmək lazım gələndə öz qoca ananız haqqında düşünün. Boğazınıza dəhşətli balıq yağını qış vaxtı zorla dürtməsini yada salın! Sizə elə gəlirdi ki, bu qusuntudur, lakin bunlar sizin xeyriniz üçün idi" (Bünyadov, 1997, s.139-140). O bəzi gənclərin analarının sağlığında necə bir şəfqətlə əhatə olunduqlarını dərk etmədikləri və Allahın nemətindən qəflətdə qaldıqlarını təəssüflə yada salır: "...mən illər boyu onu görməyib yalnız təbrik otkrıtkaları ilə kifayətlənirdim" (Bünyadov, 1997, s.140). Bu və digər misallarla Z.Bünyadov gəncləri ailə bağlarına sevgi, qayğı və hörmətlə yanaşmağa dəvət edir.

Müəllif əsərin qəhrəmanı Dümbül bəyin dilindən ata-oğul münasibətlərinə aydınlıq gətirərkən bildirir ki, ata ilə dostluq gərək ikitərəfli ola. Düşünməyin ki, hər şey ondan asılıdır, oğul ailə dəyərlərinə dair fikirlərini özü dəyişməlidir. Oğul atasına etibar etməli, ona öz kiçik sirləri, dələduzluğu, uğurları, təəssüratları və narahatlıqları haqda pıçıldamalıdır. (Bünyadov, 1997, s.142) Həqiqətən, müasir dövrün sosial-məişət problemlərinin əksəriyyəti cəmiyyətdə kişi örnəyinə ehtiyacın ödənməməsindan yaranır. Hazırda İbrahim, Yusuf, Musa, İsa, Muhamməd kimi Allah rəsullarının yolu ilə gedənlər Fironu və Qarunu təqlid edənlərdən daha azdırlar.

Ailədə qardaş-bacılar arasında həsəd və paxıllığın yaranaraq sonradan mülk davalarına çevrilməməsi üçün Dümbül bəyin maraqlı tövsiyəsi vardır. O deyir: “Bu məsələ haqda düşünənlərin çoxu fikirləşir ki, əgər yemək, içmək və hədiyyələr lap uşaqlıqdan övladlar arasında tən bölünsə, düz olar. Payların bərabərliyi, eyniliyi sistemi – budur, əsas təhlükə! Bu dərrakəsiz uşaqları sənə yarısı, mənə yarısı məvhumuna alışdırır. Onlar ölçməyə, çəkməyə başlayır və hər şeyin tən olmasını güdürlər. Elə buradan da hay-küy, bağırtı, öcəşmə və başqa şeylər başlanır. Ən yaxşısı budur ki, bir dəfə birinə, sonra ikincisinə, bəlkə də birisinə iki dəfə dalbadal verilsin və işi də elə qurmaq vacibdir ki, heç vaxt pay bölüşməsi olmasın” (Bünyadov, 1997, s.143).

Müəllifin fikrincə, gənc oğlanın qardaş və bacıları ilə dava-dalaş etməyə haqqı var. Bu adi şeydir və babası demişkən, dava-dalaş qan dövranına kömək edir. Eyni zamanda o oğlanlara xatırladır ki, bacılarınızı qaradaşlarınız kimi döyməməlisiniz.

Dümbül bəy valideynlərin övladları ilə münasibətlərini tənzimləməsi üsuluna da toxunur: “...bəzilərini məhdudlaşdırmaq, digərlərinə isə ürək-dirək vermək lazımdır. Fərasətliləri sadə şeylərə alışdırmaq, işləkləri təkəbbürə. Alimi idmana yedəkləmək lazımdır – velosipedə, futbola, boksa, güləşə. Və əksinə - pəzəvəngə ki, əli qabarlıdır, tennisi, ovu və s. öyrətmək lazımdır” (Bünyadov, 1997, s.144).

Z.Bünyadov keçid dövrü gənclərinin problemlərində və ya hədsiz utancaqlıqlarında böyüklərin rolunu vurğulayır, onların ünsiyyət ehtiyaclarının ödənməməsini çox təsirli misallarla diqqətə çatdırır: “Gənclərin şüşə-pəncərələri qırmaqları, beşiklərindən yenicə qalxıb nəşələnmələri, divarlarda axmaq-axmaq sözlər yazmaqları sizi narahat edir? Məni yox! Bunlarla açıq-açığına yalnız polis təcridxanalarında danışmaq mümkündür. Polis məmurları, heç olmasa, onlara qulaq asır, dindirir, onlarla danışırlar. ...gənclər üçün çatışmayan bir şey varsa, bu da onlarla söhbət etməyə adamların olmamasıdır” (Bünyadov, 1997, s.147).

Müəllifə görə “gəncləri yaşlılar düzəldir” (Bünyadov, 1997, s.146), “ayaqqabılarını pəyəndaza silib təmizləyən, lifti geriyə qaytaran, ayaqyolundan çıxanda baçokdan suyu buraxan və evə girəndə arxalarınca qapını örtən” (Bünyadov, 1997, s.146) – məsuliyyətli, namuslu, cəsarətli gənclər yetişdirmək üçün onlardan şikayətlənmək, onlara cəza vermək yox, həyatda yaşamağı öyrətmək, əyləndirmək və etibar etmək lazımdır. Dümbül bəyin müzür müəllimdən qorxan məktəbliyə tövsiyəsi də düşündürücüdür: “Qulaq as, balaca, sən gərək müəllimlərinə dözəsən, nəzarətçilərə yox!” (Bünyadov, 1997, s.150).

Yuxarıdakı sitatdan göründüyü kimi, müəllif müəllimin tədris saatı ərzində şagirdlərə fənni yüksək səviyyədə keçməsi, onlarda biliyə maraq oyatması və suallarına cavab verməsi zamanı daha çox sevgi və ünsiyyət bağlarını, pedaqoji mühiti qorumalı olduğunu diqqətə çatdırır. O, şagirdlərdə qorxu və köləlik hissiyyatı yaradan, özgüvəni zədələyən, mənlik hissini əzən müəllimi müzür adlandırır və gəncləri zorakılığa tabe olmamağa çağırır. Yəni, tədris prosesi azad münasibətlər zəminində qurulmalı, təklif tələbə uyğun olmalı, həddi aşıb nəzarət - məcburiyyət - cəza səviyyəsinə keçməməlidir. Gözəl davranışlar müəllimi Dümbül bəyin fikrincə “Əllərini ciblərindən çıxar, ay beyinsiz..! deyə bağıran müəllimə şagirdin “Əgər əllərimi ciblərimdən çıxarsam, siz onları eşidə bilərsiniz” cavabı tamamilə ədalətlidir. Yəni, zorla gözəllik olmaz. Müəllim şagirdində gördüyü xətaları radikal yolla dəf etməyə qalxarsa, radikal cavablar ala bilər, çünki bilənlə bilməyən eyni deyildir. Sual yaranır: Kimdir haqlı: “beyinsiz” şagird, yoxsa beyinsiz hesab etdiyi şagirdindən anlayış gözləyən mü əllim?.. Z.Bünyadova görə, gənclərə cəzanı yox, gözəl davranışlarla yaşamağı öyrətməliyik. Çünki gözəl davranışlara sahib olmaq bəxtin əsasını təşkil edən əlamətdir (Bünyadov, 1997, s.155). Həqiqətən, pislik yaxşılıqla dəf edilir.

Əsərdə oxucular yeni ailə qurmuş, ata olmağa hazırlaşan gənc güllə deşikləri müəllimi Səmədin şəxsiyyət kimi formalaşmasnda ictimai rəyin, həmkarların rolunu görürlər. Belə ki, zabitəli qaynata həkim İmalə və qaynana yanında yaşayan Səməd və xanımı tamamilə onların təsiri altına düşmüşlər. Qağa və Dümbül bəy Səmədin iradəsinin möhkəmlənməsi, ailəsi barəsində azad və müstəqil qərarlar vermək iqtidarının güclənməsi üçün əllərindən gələni edirlər. Həm işdə, həm də ailədə müxtəlif həyat imtahanlarından çıxan Səməd nəhayət öz mövqeyini müdafiə etməyi bacaran,

sözünü açıq deməyə cəsarət edən güclü şəxsiyyətə çevrilir. Kitabdakı hadisələrin kulminasiya nöqtəsi Səmədin timsalında gənclərin fiziki və mənəvi qurtuluşu ideyasıdır. Əsərin əsas ideyası qağanın bu sözləri ilə ifadə olunur: "Yaşasın böyük hərflə yazılan İnsan və onun mərd əməlləri!" (Bünyadov, 1997, s.215).

**Nəticə**

Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov yalnız həyatı və yaradıcılığı ilə deyil, həm də ölümü ilə tanınan və millətin qəlbində özünə əzəmətli abidə qoymuş nadir şəxsiyyətlərdəndir. Ziya Bünyadovun xidmətləri, qoyduğu irs, unudulmaz xatirəsi yaddaşlarda yaşayır. O, azərbaycanlıların əyilməzlik, vüqar, fədakarlıq və rəşadət örnəyidir. Ziya Bünyadov Azərbaycanın milli azadlığı və dövlət müstəqilliyi uğrunda son nəfəsinədək mübarizə aparanlar üçün mətinlik, iradə, əzm, alimlik, vətənpərvərlik, ədalətsizliyə qarşı mübarizə meyarıdır. O, sözün düzünü deməkdən, həqiqəti açmaqdan çəkinməzdi, ədalətə sarsılmaz inamı onu hər zaman qalib edirdi. Quranın tərcüməçisi yaxşı bilirdi ki, dünya axirətin tarlasıdır; Yaradanın əleyhinə getmək olmaz; Ondan gəldik və Ona dönəcəyik.

Odur ki, həyatının bircə anı boş keçmədi, məqsədyönlü yaşadı, yazdı-yaratdı. Əsərləri ilə Cavanşiri, Babəki, Atabəyləri yenidən gündəmə gətirdi, xalqın ruhunu qidalandırdı, özgüvənini qaytardı. Rəsmi strukturların çaşqınlıq və susqunluq mövqeyinə rəğmən, Azərbaycanda milli özünüdərkin oyanmasına, mənlik şüurunun bərpasına çalışdı: yüksək ülvi hisslər, ətrafdakılara qayğı, söz və əməl birliyi, alovlu vətənpərvərlik, xalqa, millətə, torpağa hədsiz məhəbbət nümunəsi oldu. O heç vaxt haqqı nahaqqa qurban vermədi. Harada olsa, nə söyləsə, nə ilə məşğul olsa, ədalət hissini qorudu. Məhz bu hiss olduqca həssas və rəhmli, xeyirxah insan, zəiflərə, kimsəsizlərə kömək edən Z.Bünyadovu son nəticədə rəqiblərindən üstün edirdi. O, ölkədə əliəyriliyin, rüşvətxorluğun baş alıb getdiyi, bir qrup kələkbazın eyş-işrət içində yaşayarkən, başqalarının güclə dolandığı, kadr siyasətinin bərbad olduğu, yerlibazlıq, qohumbazlıq, ayrıseçkilik hallarının artdığı vəziyyətlə barışmır, iradlarını çəkinmədən bildirir, cəmiyyətin nizamı üçün doğru tövsiyələr irəli sürürdü.

Z.Bünyadovun "Polis məmuru Dümbül bəyin macərası" əsəri də məhz onun daxili hiss və həyacanlarının bədii ifadəsi; zarafat, satira və yumorla pərdələnən sosial, siyasi, psixoloji problemlərin ictimai idrak metodudur. Əsər Dümbül bəyin simasında Ziya Bünyadovun qorxmazlığı, cəsarəti, əyilməzliyi, fərqli situasiyalarda özünə məxsus qaydasız, gözlənilməz davranışı, əsərdə deyildiyi kimi, lazım olduğu kimi yox, özünün dərk etdiyi və istədiyi kimi yaşam sənəti örnəyidir. Akademikin həyat mövqeyi belədir: özünü yaxşı aparmağı bacarmaq üçün özünü lazım olduğu kimi aparmaqdan çəkinmək vacibdir. Bu əsər ruhu göylərə qaldırıb nəfsi ayaq altına atmır. Nəfsin də ruha xidmət etmək xüsusiyyətini insanlara izah edir. O öz xətalarının nəticələri nümunəsində gəncləri səfərbər olmağa çağırır, nəfsin afətlərindən (bəlalarından) xəbərdar edərək, bu fitri keyfiyyəti israf etməməyə və dəyərini bilməyə istiqamətləndirir.

## ƏDƏBİYYAT


Abbasov Vaqif. Savaşda qəhrəman, elmdə qəhrəman dahi Ziya Musa oğlu Bünyadov. https://www.nkpi.az/?page=addread&id=15385 19.02.2024

Bünyadov Ziya. Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər). Rus dilindən tərc. ed. C. V. Qəhrəmanov. Bakı: AMEA Şərqşünaslıq İnstitutu, "Elm", 1985.

Bünyadov Ziya. Azərbaycan VII-IX əsrlərdə. Rus dilindən tərcümə edənlər: Cabbar Cabbarov və Həsən Əlizadə. Bakı: "Şərq-Qərb", 2007.

Bünyadov Ziya. Dinlər, təriqətlər, məzhəblər (ensiklopedik soraq kitabı). Bakı: "Şərq-Qərb", 2007.

Bünyadov Ziya. Qırmızı terror. Bakı: "Azərnəşr", 1993, 255 səh.

Bünyadov Ziya. Polis məmuru Dümbül bəyin macərası. Çapa hazırlayanlar: Hüsaməddin Məmmədov Bakı: "Ozan", 1997. -270 səh.

Bünyadova Tahirə. Ölümdən güclü. Bakı: "Elm", 2002, 307 səh.

Əliyeva İradə. Azərbaycan. Bakı: 2010, 9 may, səh. 12.

Kolosov Mixail. Ədib Sayan Yıxılmazovun həyatından hekayələr /T.Z.Bünyadov /Red.: S.Hüseynova. – Bakı: Yazıçı, 1984. – 143.

Moisey Kalankatuklu "Alban tarixi". Mxitar Qoş "Alban salnaməsi" Mətni tərcümə edəni, müqəddimə, qeyd və şərhlərin müəllifi: Ziya Bünyadov. Bakı: "Avrasiya press", 2006, 296 səh.

Umudlu Ellada. Qafqazda Azərbaycan xalqının daha qədimdən məskunlaşdığını sübuta yetirən böyük alim Akademik Ziya Bünyadov xatirələrdə. Azərbaycan müəllimi. Bakı: – 2012 - 17 fevral. - s. 4.

Ziya Bünyadov. Biblioqrafiya. Tərtib edən Ç.N.Əhmədova. Bakı: "Elm", 1994, 62 səh.

Ziya Musa oğlu Bünyadov. Biblioqrafiya. Bakı: "Nurlan", 2004, 124 səh.

## РЕЗЮМЕ

***Ирада ЗАРГАН***

***О Зии Буньядове и его произведении «Приключения полицейского чиновника Дюмбюль бека»***

***Ключевые слова:*** *Зия Буньядов, шехид, герой, востоковед, Дюмбюль бек, приключение*

В статье затрагиваются важные моменты жизни и творчества Зии Буньядова. Отражены результаты исследования его личности, семейной генеалогии, молодости, военных достижений, научной и общественной деятельности. В данной работе рассмотрено творческое наследие ученого, а произведение «Приключение полицейского чиновника Дюмбюль бека» рассмотрено в философско-этическом аспекте. Доведено до сведения, что работа является отражением энциклопедических знаний, широкого кругозора, богатого жизненного опыта, организаторских и коммуникативных способностей академика Зии Буньядова. Также отмечено важное влияние работы на воспитание молодого поколения, прокомментирован ее вклад в их поведение и познание, материальное и духовное развитие. Оригинальные соображения в произведении - об учителе-ученике, женщине-мужчине, отце-сыне, муже-жене, воспитании мальчиков и девочек, семейных отношениях в целом, о деловых отношениях - заставляют задуматься читателей. Они обогащают наше представление о реальной сути хороших и плохих вещей в жизни.

## ABSTRACT

***Irada ZARGAN***

***About Ziya Bunyadov and His Work "The Adventure of the Police Officer Dumbul Bey"***

***Keywords:*** *Ziya Bunyadov, martyr, hero, orientalist, Dumbul bey, adventure*

The article touches on the important moments of Ziya Bunyadov's life and work. The research results of his personality, family genealogy, youth, military achievements, scientific, and social activities are reflected. In this work, the artistic heritage of the scientist was considered, and the work "The

Adventures of Police Officer Dumbul Bey" was examined in a philosophical and ethical aspect. It has been brought to attention that the work is a reflection of academician Ziya Bunyadov's encyclopedic knowledge, broad outlook, rich life experience, organization, and communication skills. Also, the important effects of the work on the upbringing of the young generation were noted, and its contributions to their behavior, cognition, material, and spiritual development were commented. Original considerations in the work—about teacher-student, woman-man, father-son, husband-wife, raising boys and girls, family relationships in general, business relationships—make readers think. They enrich our understanding of the real essence of the good and bad things in life.